Azərbaycan Respublikası
**Səhiyyə Nazirliyi**

**Azərbaycan Tibb Universiteti**

# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
# I MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİ




# MƏLUMAT KİTABÇASI

***2024/2025-ci tədris ilində qəbul olan tələbələr üçün***



Əziz Tələbələr !

Sizlərə, ilk öncə Azərbaycan Tibb Universitetini seçdiyiniz üçün  təşəkkür edir , eyni zamanda tələbə adı qazanmağınız münasibəti ilə universitet rəhbərliyi adından,  başda hörmətli rektorumuz  **professor Gəray Gəraybəyli** olmaqla səmimi qəlbdən təbrik edirik,  valideynlərinizə isə göz aydınlığı veririk. Bu şərəfli və nəcib peşəyə yiyələnmək yolunda hər birinizə uğurlar arzu edirik.

Ümid edirik ki, bu kitabça Univeristet kampusu və tədrisin aparılma qaydaları haqqında sizdə az da olsa təsəvvür yaradacaq .

Hörmətlə

I Müalicə- Profilaktika Fakültəsinin dekanı

Dos. Elşad Novruzov

# Mündəricat


Akademik heyət.........................................................5
İctimai əsaslarla fəaliyyət göstərən təşkilatlar....................6
Universitetin kampusu...................................................8
Azərbaycan Tibb Universitetinin rəsmi saytı....................15
Elektron Tədris Sistemi.................................................16
Fakültəmizin sosial şəbəkə hesabları...............................17
Tədrisin keçirilməsi haqqında təlimat..............................18
Tələbənin bilik səviyyəsinin qiymətləndirilməsi.........................................................19
Tələbənin dərsə davamiyyəti..........................................20
Tələbənin təhsil forması və ona uyğun 1 kreditinin qiymətinin hesablanması.................................20
Akademik borcun ləğvi...................................................20
Təkrar dinləmə.............................................................20
Tələbə fənnin kredit borcunu hansı hallarda 25 %-lə ödəyə bilər.........................................21
Yay məktəbi...................................................................22
Təhsil Tələbə Krediti………………………………….23



**Azərbaycan Tibb Universitetinin rektoru**

**Professor Gəray Gəraybəyli**



**I Müalicə Profilaktika Fakültəsinin dekanı**

Dosent Elşad Novruzov



*I və II Kurslar üzrə*



dekan müavini
Dos. Mahir Quliyev

Akademik məsləhətçi
Dos. Sədaqət Rüstəmova



*III və IV Kurslar üzrə*



dekan müavini
Ass. Gültəkin Novruzova

Akademik məsləhətçi
Səma Qocayeva



*V və VI Kurslar üzrə*



dekan müavini
B/m. Nigar Mikayılova

Akademik məsləhətçi
Ləman İbrahimova



*Operator*

Gülnar Həkimova



*I MPF-nin Tələbə Həmkarlar İttifaqı Komitəsinin Sədri*

Gülay Novruzova

IV Kurs, 121A12c qrupu



*I MPF-nin Tələbə Gənclər Təşkilatının Sədri*

Bənazir Ağalarova

III Kurs, 122A10a qrupu



*I MPF Tələbə Elmi Cəmiyyətinin Sədri*

Qafarova Nigar

VI kurs, 119A12b qrupu



*I I MPF-nin Tələbə Dekanı*

Rüfət Əzimli

V Kurs, 120A1b qrupu

# Hansı tədris binalarımız var ?

## İnzibati bina – “Dekanlıq”



Nəsimi Rayon İcra Hakimiyyətinin yanında yerləşir.

I Müalicə-profilaktika Fakültəsinin dekanlığı binanın III mərtəbəsində yerləşir.

## 1 saylı tədris binası – “Latın korpusu”



I kurslar üçün Kliniki bacarıqlar və Bioetika fənləri tədris olunur.

# 3 Saylı Tədris binası- "Anatomiya korpusu"



Əsas korpusun arxasında yerləşir

- I mərtəbə - İnsan anatomiyası və tibbi terminologiya kafedrası
- III mərtəbə - Sitologiya , Embriologiya və Histologiya kafedrası
- IV mərtəbə - Tibbi biologiya və genetika kafedrası

# 4 Saylı Tədris Binası- "Fizika-Kimya korpusu"



Əsas korpusun arxasında yerləşir

- - I mərtəbə
    - Normal fiziologiya kafedrası
- I mərtəbə
    - Mühazirə zalı
    - Farmakologiya kafedrası
- II mərtəbə
    - Patoloji Fiziologiya kafedrası
- III mərtəbə
    - Tibbi Mikrobiologiya və immunologiya kafedrası
- IV mərtəbə
    - Bioloji Kimya kafedrası

# 5 saylı tədris binası – “Əsas korpus”



- I mərtəbə
  - İmtahan Mərkəzi
  - Kitabxana – tədris vəsaitlərini buradan əldə edə bilərsiniz.
  - Kompüter zalı
  - Akt zalı
  - Appellyasiya komissiyyası
- II mərtəbə

  Oxu zalı
- III mərtəbə - “İctimai Fənlər” kafedrası
  - Azərbaycan tarixi
  - Multikultralizm
  - Fəlsəfə
- VI mərtəbə - “Azərbaycan dili” Kafedrası
  - Azərbaycan dilində işgüzar və akademik komunikasiyalar
- VII mərtəbə - “Xarici dillər” kafedrası
  - Xarici dillər (rus, ingilis, alman)
- IX mərtəbə
  - İnformasiya texnologiyaları və informasiyaların idarə edilməsi



ATU Tədris Cərrahiyyə Klinika



ATU Tədris Terapevtik Klinika.



**ATU Onkoloji Klinika.**




**ATU Tədris Stomatoji Klinika.**




Hal-hazırda ATU-da 4 yataqxana fəaliyyət göstərir, 3 saylı yataqxana isə əsaslı təmirə dayandırılıb. Yataqxanalarımızın ümumi tutumu 1160 nəfərə yaxındır".

1 və 2 saylı yataqxanada Azərbaycan vətəndaşı olan qız tələbələrimiz, 6 saylı yataqxanada Azərbaycan vətəndaşı olan oğlan tələbələrimiz və 5 saylı yataqxanada isə əcnəbi tələbələrimiz yaşayırlar. Hər il tədris ilinin başlaması ilə əlaqədar sentyabr ayının 1-dən etibarən yataqxanaya müraciət etmiş tələbələrimizin yerləşdirilməsi prossesi başlayır. Onu da qeyd etmək istərdik ki, Azərbaycan vətəndaşı olan oğlan və qız tələbələrimiz 100% yataqxana ilə təmin olunurlar. Tələbənin yataqxana haqqı köçürməsi yataqxanadan və otağın tutumundan asılı olaraq dəyişir. Lakin Şəhid ailələrindən olan və valideyn himayəsindən məhrum olan tələbələr yataqxanaya ödənişsiz yerləşdirilir. Qazi uşaqlarına və I qrup əlil valideyini olan tələbələrə də müəyyən güzəştlər edilir. Universitet yataqxanaları həmişə Rektorun, Universitet Həmkarlar İttifaqı Komitəsinin və təsərrüfat şöbəsinin nəzarəti ilə daim diqqət mərkəzində saxlanılır. Bunun nəticəsi olaraq yataqxanalarda oxu zalı, istirahət otağı fəaliyyət göstərir və daim internetlə təmin olunur.

# Azərbaycan Tibb Universitetinin Rəsmi Saytı




Amu.edu.az saytına daxil olaraq, siz Universitet , kafedralar, Tədris vəsaitləri və.s haqqında məlumat ala bilərsiz.




Həmçinin Fakültələr bölməsindən Fakültə haqqında daha ətraflı məlumatlar, keçirtdiyimiz layihələr və.s ilə tanış ola bilərsiniz

# Elektron Tədris Sistemi- ETS

Ets.amu.edu.az saytına daxil olaraq sizə məxsus İstifadəçi adı və parolu müvafiq xanalara daxil etdikdən sonra şəxsi kabinetinizə daxil ola bilərsiniz.




Burada semestr boyu keçəcəyiniz fənlər, test bankı, onlayn mühazirələr və mətnləri yerləşdirilmişdir. Həmçinin İmtahan mərkəzində bu sistem üzərində aralıq və semestr imtahanları verilir.

# Fakültəmizin Sosial Şəbəkə hesabları

Facebook




İnstagram




Youtube



## Əsas (Baza Ali) Tibb Təhsili




Normativ təhsil müddəti Tibb Fakültəsi üçün 6 ildir

- Payız və Yaz semestrlərinin hər birində tələbə 30 kreditlik dərsə gedir.
- Payız və Yaz semestrinin hər birində tələbə maksimum 40 kreditlik dərsi götürə bilər. (əgər cədvəlində dərslərin toqquşması yoxdursa)
- Yay məktəbi 5 həftədən ibarətdir . 1 həftə isə imtahan üçün nəzərdə tutulur.

**Normativ təhsil müddətində (6 ildə) tələbə 360 kreditlik dərsi mənimsəməlidir.**

**Baloniya sisteminə əsasən bilik səviyyəsi 100 ballıq sistemlə qiymətləndirilir.**




**Qeyd: İmtahana giriş balı ilə imtahan balının cəmi 51 baldan və ya imtahanda toplanılan bal 17 baldan aşağıdırsa, bu qeyri -kafi (F) qiyməti ilə qiymətləndirilir və tələbədə həmin fənlə bağlı akademik borc yaranır.**

## Dərsə Davamiyyət

Tələbə fənnin  ümumi saatının 20%-dən çoxunda iştirak etmədikdə və ya həmin fənnin mühazirə saatlarının 40%-da olmadıqda fənnin imtahanına buraxılmır.

**Qeyd:**

**1.Əvvəlki illərdən fərqli olaraq, tələbə davamiyyətə görə maksimal 10 bal almamasına baxmayaraq, dərsdə iştirak etməmə limiti qüvvədədir.**

**2.Hətda tələbə dərsdə iştirak etməməsini üzrlü səbəb kimi göstərdikdə belə bu hal limit daxilində keçərlidir.**

## Təhsil forması

- Ödənişli təhsil (4500 AZN)
- Dövlət sifarişli təhsil (həmin tələbənin təhsili üçün dövlət tərəfindən ödənilən məbləğ - 5400 AZN)

**Təhsil forması və ona uyğun tələbənin 1 kreditinin qiyməti**

- Ödənişli təhsildə oxuyan tələbənin 1 kreditinin qiyməti 75 AZN-dir. ( Hesablama qaydası : 4500/60=75 AZN)
- Dövlət sifarişində oxuyan tələbənin 1 kreditinin qiyməti 90 AZN-dir. ( Hesablama qaydası : 5400/60=90 AZN)

# Akademik borcun ləğvi

Tələbənin hər hansı fəndən kredit borcu yaranarsa , tələbə bu borcu ödəmək üçün fənnin Təkrar dinləməsinə, fənnin 25%-ni ödəməklə təkrar imtahana və ya Yay məktəbində 5 həftəlik dərs alıb, fənnin təkrar imtahanını verə bilər.

## Təkrar dinləmə

Tələbə fənnin kredit borcunu ləğv etmək üçün, fənnin təkrar dinləməsinə ödəməli olduğu məbləğin hesablanma qaydası aşağıdakı kimidir.

- 1 kreditin pulu götürdüyü fənnin kredit sayına vurulur və tələbə tərəfindən ödənilir.
- Məsələn:
- 75 * 4 kredit = 300AZN (ödənişli əsaslarla oxuyan tələbə üçün)
- 90 * 4 kredit = 360 AZN (Dövlət sifarişi ilə oxuyan tələbə üçün)
- **Qeyd: Tələbənin götürdüyü T/D fənni (həmin semestrdə fənn tədris olunursa) də daxil olmaqla həmin semestrdəki kreditlərin cəmi sayı 30 kreditə qədərdirsə, tələbə Təkrar dinləmə fənni üçün ödəniş etmir. (30 kreditdən çox olduqda, aradakı fərq kreditinin ödənişi tələbə tərəfindən ödənilir).**
- Əgər götürülən fənn həmin semestrdə tədris olunmursa demək ki, o fənn üçün yeni qrup yaradılmalıdır (Cədvəlindəki digər fənnlərlə toqquşmadıqda).
- Qrupun əmələ gəlməsi üçün tələbə sayının tənzimlənməsi Universitetin daxili qaydalarına əsaslanır (Bu günə olan qərar 8 nəfərdən ibarət olmasıdır).
- **Qeyd: Yeni qrup yaradıldığı halda tələbənin semestr kreditlərinin sayı 30 kreditdən az olsa belə, yenə də T/D fənni ödənişli əsaslarla tədris olunur.**

## Tələbə fənnin kredit borcunu hansı hallarda 25 %-lə ödəyə bilər?

1. Normativ təhsil müddəti ərzində fənnin tədris olunduğu semestrlərdə
2. Fənnin imtahanından «F» (qeyri kafi) qiymət aldıqda
3. Fənnin imtahanında üzrsüz səbəbdən iştirak etmədikdə.
4. Tələbə hər semestrin sonunda 2 fəndən çox olmamaqla fənnin 25%-ni ödəyib, təkrar imtahan verə bilər.

**Qeyd: Fənnin kredit borcunu 25 % ödəyən tələbə təqaüd sıralamasında iştirak etmir**

## 25 %- in hesablama qaydası:

1 kreditin qiyməti fənnin kreditinə vurulub , 4-ə bölünür.

Məsələn

Tələbə 5 kreditlik fənnin borcunu ödəmək üçün

75*5=375 AZN (ödənişli əsaslarla təhsil alanlar üçün)

375 AZN ------100%

X AZN ----------25 % və ya 375/4=93.75 AZN

X=93.75 AZN

**Yay məktəbində kimlər iştirak edə bilər?**

1. Götürülən fənn XAM fənn deyilsə ( Fənnin 50% - də iştirak edibsə). Bu qayda qeyri-tibbi fənlərə aid deyil. (məsələn: Xarici dil, Azərbaycan tarixi, Azərbaycan dili, İnformatika və s.)

2. Əvvəlki semestrlərdə fəndən aldığı qiymətdən narazı qalıb, qiymət artımı ilə bağlı müraciət edənlər

3. Həmin fəndən «F» (qeyri kafi) qiymət alan tələbələr.

4. Fənnin imtahanında iştirak etməyən tələbələr.

5. Yay məktəbində tələbə maksimum 10 kreditlik dərs götürə bilər

**6 il ərzində keçəcəyiniz fənlər 3 yerə bölünür.**

1. Məcburi , ardıcıllığı olan fənlər
2. Məcburi , lakin ardıcıllığı olmayan fənlər
3. Seçmə fənlər.

- Ardıcıllığı olan fənlərdən kredit borcu olan tələbə sonrakı fənnə buraxılmadığı üçün , tələbə o fənnin kredit borcunu tez ödəməkdə maraqlıdır.

## Təhsil Tələbə Krediti

Tələbə hansı şərtlər əsasında Təhsil Tələbə Krediti (TTK) almaq hüququ qazanır?

a) Sosial TTK üzrə:
Aşağıdakı şərtlərdən biri ödənildikdə tələbə sosial TTK almaq hüququnu qazanır.

➢ Tələbə ünvanlı dövlət sosial yardım alan ailənin üzvü olduqda;

➢ orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (3-cü qrup) əlilliyi olduqda;

➢ ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;

➢ Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək "Müharibə veteranı" adı almış şəxslər;

➢ Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıdakı kateqoriyaların hər hansı birinə aid olduqda:

✓ orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə (1 və ya 2-ci qrup) əlilliyi olan şəxslər;

✓ işsiz kimi qeydiyyatda olanlar;

✓ yaşa görə əmək pensiyaçıları;

✓ yaşa görə sosial müavinət alanlar.

b) Standart TTK üzrə:
Tələbə sosial TTK üçün uyğun olmadıqda standart TTK-ya uyğunluğu yoxlanılır.
Aşağıdakı şərtlər ödənildikdə tələbə standart TTK almaq hüququnu qazanır.

➢ Birinci tədris ilinin ilk semestrində (yarımilində) oxuyan tələbələr üçün:

• tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olduqda:

✓ bakalavriat səviyyəsi üçün 250-700 bal aralığı;

✓ magistratura səviyyəsi üçün 50-100 bal aralığı;

✓ subbakalavriat səviyyəsi üçün 110-300 bal aralığı.
• illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödədikdə.

➢ Digər semestrlər (yarımillər) üçün:

• tələbənin ÜOMG-si/aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olduqda;
• illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödədikdə

Tələbə təhsil kreditinə müraciət etmək istiyən tələbələr bu link https://www.e-ttkf.edu.az/Content/Documents/InstructionFile.pdf vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

***Son olaraq onu bildirmək istəyirik ki, hər bir tələbə ilə universitet arasında bağlanmış müqavilə şərtlərini diqqətlə oxumanız tövsiyyə olunur. Müqavilə 2 nüsxədən ibarət olur. 1 nüsxəsi universitetdə, digəri isə tələbədə qalır.***

***Tələbə müqavilə ilə tanış olaraq öz hüquq və öhdəliklərini bilmiş olur.***

# BİZİ SOSİAL ŞƏBƏKƏLƏRDƏN İZLƏYİN

atumpf_1 ATU I Müalicə-Profilaktika Fakültəsi

I Müalicə-Profilaktika Fakültəsi







